**Mübariz Məmmədhüseyn oğlu BAĞIROV** *professor, i.e.d.*
Azərbaycan Dövlət Iqtisad Universiteti
"Maliyyə və audit" kafedrası

**Əli Rasim oğlu ABDULLAZADƏ**
Azərbaycan Kooperasiya Universiteti, Doktorant
*aliabdullayev894@gmail.com*

# QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ RƏQABƏTQABİLİYYƏTLİK SƏVİYYƏSİNİ MÜƏYYƏN EDƏN MÜHİTİN TƏHLİLİ

**Xülasə**

Bu məqalədə qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin və mühitin qiymətləndirilməsi üçün metodik yanaşma təklif olunur. Tədqiqatın aktuallığı qida sektorunda rəqabətin artması, bazar şəraitinin dəyişkənliyi və istehlakçı tələbatının transformasiyası ilə əlaqədardır. Rəqabət qabiliyyətinin vahid rəqəmsal göstərici ilə ölçülməsi təklif olunur ki, bu da rəqabət qabiliyyətinin səviyyəsinin dinamikasını və müxtəlif müəssisələrin müqayisəli təhlilini aparmağa imkan verir. Metodoloji yanaşma bir neçə mərhələni əhatə edir: əsas göstəricilərin müəyyənləşdirilməsi, məlumatların toplanması, standartlaşdırılması, inteqral göstəricinin hesablanması və nəticələrin şərh edilməsi. Əsas göstəricilər arasında EBITDA, EV, ehtiyatların dövriyyə əmsalı, əməliyyat mənfəətliliyi və bazar payı vurğulanır. EBITDA müəssisənin maliyyə dayanıqlığını, EV isə biznesin dəyərini qiymətləndirməyə imkan verir. Ehtiyatların dövriyyə əmsalına xüsusi əhəmiyyət verilmişdir, çünki qida sənayesində qısa saxlama müddəti xarakterikdir. Göstəricilərin standartlaşdırılması və çəkili arifmetik orta formula ilə inteqral qiymətləndirmə aparılır. Tədqiqat nəticəsində ehtiyatların dövriyyə əmsalı üçün 0,6, digər göstəricilər üçün isə 0,25 çəki əmsalı təklif edilmişdir. Məqalədə təklif olunan metod müəssisələrə bazar mövqelərini gücləndirmək və iqtisadi səmərəliliyi artırmaq üçün praktiki alətlər təqdim edir. Müəssisələrə rəqəmsal texnologiyalardan istifadə, ehtiyatların idarə edilməsini optimallaşdırmaq və innovasiyaları tətbiq etmək tövsiyə olunur. Məqalədə göstərilir ki, bu yanaşma müəssisələrin uzunmüddətli inkişaf strategiyalarını dəstəkləyir və onların bazar rəqabətində davamlılığını təmin edir.

**Açar sözlər:** rəqabət qabiliyyəti, qida sənayesi, EBITDA, ehtiyatların dövriyyəsi, strateji idarəetmə.

**UOT: 330:341 JEL L60**
**JEL:** F-52
**DOI:** https://doi.org/ 10.54414/GTGE6764

## Giriş

Qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi hazırkı iqtisadi şəraitdə mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın aktuallığı qida sektorunda rəqabətin kəskinləşməsi, bazar şərtlərinin sürətli dəyişməsi, istehlakçı tələbatının transfer-masiyası və qlobal iqtisadi çağırışlarla bağlıdır. Müəssisələrin bazarda mövqelərini qoruyub inkişaf etdirməsi üçün rəqabət qabiliyyətinin dəqiq qiymətləndirilməsi zəruridir. Bu, xüsusilə qida sənayesində qısa saxlama müddəti, yüksək

istehlak dinamikası və ekoloji tələblər kimi xüsusiyyətlər nəzərə alındıqda daha da vacib olur. Bundan əlavə, rəqabət qabiliyyətinin effektiv təhlili müəssisələrə resurs idarəetməsini optimallaşdırmağa və bazar payını artırmağa kömək edir. Tədqiqatın məqsədi rəqabət qabiliyyətinin səviyyəsini ölçmək üçün metodik yanaşma təklif etmək və əsas göstəriciləri müəyyənləşdirməkdir. Zənnimizcə, aşağıda təklif olunan metodlar qida səanyesi müəssisələrin dinamikasını və rəqabət üstün-lüklərini təhlil etməyə, eləcə də onların uzunmüddətli inkişaf strategiyalarını formalaşdırmağa imkan verəcək.

**Qida sənayesində rəqabət qabiliyyətinin qiymətləndirilməsi metodları**




**Şəkil 1. Qida məhsulları istehsalı ilə məşğul olan müəssisələrdə RQS səviyyəsinin qiymətləndirilməsi üçün metodoloji yanaşma**

**Mənbə: Şəkil müəllif tərəfindən [7, s.352] mənbəsinə əsasən tərtib edilmişdir.**

Müəssisənin rəqabət qabiliyyətinin səviyyəsinin qiymətləndirilməsi nəticəsində rəqabət qabiliyyətini (RQ) rəqəmsal, formal şəkildə təsvir etməyə imkan verən vahid nəticə göstəricisi əldə edilməlidir. Bu, birincisi, RQ səviyyəsinin dinamikasını təhlil etmək üçün bir neçə il ərzində nəticə göstəricisinin dəyərlərini müqayisə etməyə imkan verəcək. İkincisi, bu, qida məhsulları istehsalı ilə məşğul olan müxtəlif müəssisələrin rəqabət qabiliyyəti səviyyələrinin müqayisəli təhlilini aparmağa şərait yaradacaq. İşlənib hazırlanmış metodik yanaşmamızda RQ səviyyəsinin qiymətləndirilməsinin aşağıdakı mərhələləri müəyyənləşdirilmişdir və bunlar şəkil 1-də təqdim olunmuşdur.

Hər bir mərhələni daha ətraflı təqdim edək. İlk növbədə, birinci mərhələdə müəssisənin fəaliyyətinin səmərəliliyini qiymətləndirməyə imkan verən göstəriciləri müəyyənləşdirmək və bunun nəticəsində RQ səviyyəsinin qiymətləndirilməsi üçün əsas yaratmaq lazımdır (RQ səviyyəsinin qiymətləndirilməsi üçün əsas göstəricilərin müəyyənləşdirilməsi, aktual məlumatların toplanması, ilkin məlumatların standartlaşdırılması, RQ səviyyəsinin inteqral göstəricisinin hesablanması, əldə olunan nəticələrin şərh edilməsi). İlk olaraq istifadə üçün təklif olunan göstərici EBITDA (faizlər, vergilər, amortizasiya və köhnəlmədən əvvəlki mənfəət) – ümumi mənfəət və ya faizlər, vergi, köhnəlmə və amortizasiya xərcləri çıxılmadan əvvəlki mənfəətdir. RQ səviyyəsinin qiymətləndirilməsi üçün göstəricilər sırasına onun daxil edilməsi aşağıdakı səbəblərlə izah olunur. Müəssisə fəaliyyətinin səmərəliliyinin ən vacib göstəricisi onun gəliridir. Müəssisənin əsas fəaliyyəti üzrə gəliri və rəqiblərinin gəlirləri əsasında bazarın tutumunu qiymətləndirmək, həmçinin müəssisənin bazardakı payını hesablamaq mümkündür. Bu, digər şirkətlərlə rəqabət mübarizəsinin, sabit istehlakçı kateqoriyasına bağlılığın göstəricisidir. Lakin gəlirin dəyəri və onun əsasında hesablanan xalis mənfəət müəssisənin vəziyyətini tam dəqiqliklə əks etdirmir. Məsələn, belə bir vəziyyət yarana bilər: müəssisə üç rüb ərzində öz pul vəsaitlərini toplamış, dördüncü rübdə isə öhdəliklərini ödəmək üçün xərcləmiş və bununla da xalis mənfəətin həcmini azaltmış ola bilər. Buna görə də, metodik yanaşmamızda RQ səviyyəsinin qiymətləndirilməsi üçün xalis mənfəət göstəricisi

əvəzinə EBITDA göstəricisindən istifadə etməyi təklif edirik (bax dustur (1)):

$$EBITDA = VÖM + Am + ÖF - AF, \quad (1)$$

burada VÖM – vergidən əvvəlki mənfəət, Am – amortizasiya, ÖF – ödənilmiş faizlər, AF – alınmış faizlərdir. EBITDA – faizlər, vergi, köhnəlmə və amortizasiya çıxılmadan əvvəlki mənfəətdir [7,s.265].

EBITDA müəssisənin vergi, faizlər, köhnəlmə və amortizasiyanın kompensasiyası üçün bölüşdürülməzdən əvvəl yaratdığı pul vəsaitlərinin həcmini əks etdirir. Bu xərclərin payı böyükdür və kapital tutumlu sənayelərdə (məsələn, qida sənayesində) xalis mənfəətin həcmini xeyli azaldır. Beləliklə, EBITDA xalis mənfəətdən daha az dəyişkənliyə məruz qalan maliyyə göstəricisidir, lakin eyni zamanda EBITDA maya dəyəri, kommersiya və idarəetmə xərcləri, digər gəlirlər və xərclərdən təmizlənmişdir. EBITDA göstəricisi xalis mənfəətdən böyük, lakin gəlirdən kiçikdir. RQ səviyyəsinin qiymətləndirilməsi üçün vacib olan digər bir göstərici biznesin dəyəridir (EV). Bu göstərici biznesin yekun dəyəri haqqında digər qiymətləndirmə göstəricilərinə nisbətən daha dolğun təsəvvür yaradır. EV-nin hesablanmasında təkcə bazar kapitallaşması (səhmlərin dəyəri) deyil, həm də firmanın borc öhdəlikləri və ehtiyatda saxlanılan pul vəsaitləri nəzərə alınır. EV-nin qiymətləndirilməsinin ən çox yayılmış üsulu maliyyələşdirmə mənbələri əsasında qiymətləndirmə metodudur [6, s.105, 8, s.207]. Şirkətin dəyəri aşağıdakı dustur (2) ilə hesablanır [7,s.405]:

$$EV = P + STD + LTD - C, \quad (2)$$

burada EV – şirkətin dəyəri; P – bazar kapitallaşması; STD – qısamüddətli öhdəliklər; LTD – uzunmüddətli öhdəliklər; C – pul vəsaitləri və onların ekvivalentləridir.

Şirkətin dəyərinin qiymətləndirilməsində onun öhdəlikləri və pul vəsaitləri nəzərə alınır, çünki firma yeni sahibə satıldıqda alıcı öz kapitalının dəyərini ödəməli, həmçinin firmanın borclarını ödəməlidir. EV göstəricisinin əhəmiyyəti müxtəlif kapital strukturlarına malik şirkətləri müqayisə etmək qabiliyyətindədir. Qida məhsulları istehsalı ilə məşğul olan müəssisələrin RQ səviyyəsinin qiymətləndirilməsi üçün metodik yanaşma işləyib hazırlayarkən qida sənayesinin xüsusiyyətləri də nəzərə alınmalıdır. Bizim fikrimizcə, ən vacib xüsusiyyət müəssisənin anbarında ehtiyatların və yarımçıq istehsalın miqdarıdır. Qida sənayesi müəssisələri üçün ehtiyatların qısa saxlama müddəti xarakterikdir. Buna görə də, RQ səviyyəsinin qiymətləndirilməsi üçün işlənib hazırlanan metodik yanaşmada ehtiyatların və yarımçıq istehsalın miqdarı ilə bağlı göstəricilərdən istifadə etməyi təklif edirik. Eyni zamanda, RQ səviyyəsinin qiymətləndirilməsi üçün nisbi göstəricilər sistemindən istifadənin zəruri olduğunu hesab edirik. Belə göstəricilər daha münasibdir, çünki sənayedəki müəssisələr miqyas baxımından fərqlənə bilər ki, bu da böyük miqyaslı müəssisənin (əsassız olaraq) daha rəqabət qabiliyyətli hesab edilməsinə səbəb ola bilər, çünki onun gəliri və biznes dəyəri, məsələn, kiçik biznes sahəsinə aid olan kiçik bir şirkətdən yüksək ola bilər. Şəkil 2-də iqtisadi təhlildə ümumi qəbul edilmiş və RQ səviyyəsinin qiymətləndirilməsi üçün təklif etdiyimiz nisbi göstəricilər təqdim olunmuşdur.

Bu göstəricilərin mahiyyətini qısaca təqdim edək. EV/Sales multiplikatoru şirkətin illik gəlirinin neçə qatına bərabər olduğunu göstərir. Ənənəvi olaraq aşağı EV/S multiplikatoru daha üstün hesab edilir, çünki bu, şirkətin aşağı qiymətləndirildiyini göstərir. Multiplikatorun diapazonu sənaye sahəsindən asılı olaraq dəyişir və "normal" dəyər çox fərqlənə bilər. Qida sənayesi üçün EV/Sales multiplikatorunun 1-dən 3-ə qədər dəyəri normal hesab edilir [3, s.319]. İqtisadi təhlildə bu multiplikator birincisi, eyni

sənaye sahəsindəki şirkətləri müqayisə etmək (dəyər nə qədər aşağı olarsa, bir o qədər yaxşıdır), ikincisi, bir şirkət daxilində inkişaf dinamikasını təhlil etmək üçün istifadə edilə bilər. EV/Sales multiplikatoru ilə iki müəssisəni müqayisə edərkən vacib bir şərtə əməl edilməlidir – müqayisə olunan müəssisələr sənaye daxilində oxşar miqyaslara malik olmalıdır. Müəssisənin miqyasını nəzərə almaq lazımdır, çünki miqyas xərclərin strukturuna təsir edir. Məsələn, bəzi sənaye sahələrində vergi güzəştləri və endirimlər səbəbindən daha əlverişli vergi şəraiti yarana bilər [3, s.320].

Metodik yanaşmamızda istifadə etməyi təklif etdiyimiz növbəti nisbi göstərici — əməliyyat mənfəətliliyidir. Əməliyyat mənfəətliliyi (və ya EBITDA üzrə mənfəətlilik) EBITDA-nın gəlirə nisbətini göstərir. Bu göstərici müəssisənin mənfəətliliyini, müəyyən bir ölkənin vergi toplama sisteminin xüsusiyyətləri və ya bu müəssisənin borc yükü ilə düzəliş edilmədən nümayiş etdirir. Beləliklə, əməliyyat mənfəətliliyi müxtəlif kapital strukturlarına malik, lakin eyni sahədə, o cümlədən qida sənayesində fəaliyyət göstərən bir neçə müəssisənin səmərəliliyini müqayisə etmək üçün uyğun göstəricidir.

Növbəti təklif olunan göstərici EV/EBITDA əmsalıdır – bu, gəlirlilik göstəricisidir və şirkətin amortizasiya, faizlər və vergi ödənişlərinə sərf olunmayan mənfəətinin şirkətin alınma dəyərini hansı müddətdə ödəyəcəyini göstərir. Biznesin dəyəri ilə EBITDA-nı müqayisə edərək, müəssisəni öz sənayesindəki digərləri ilə müqayisə etmək və onun aşağı qiymətləndirilmə dərəcəsini müəyyən etmək mümkündür. İqtisadi ədəbiyyatda tez-tez qeyd olunur ki, bu əmsal müxtəlif borc və vergi yükünə malik müəssisələri müqayisə etməyə imkan verir, yəni kapital strukturundan və vergi xüsusiyyətlərindən abstraksiya etməyə imkan tanıyır. Bundan əlavə, EV/EBITDA xüsusilə qida sənayesi kimi amortizasiyanın böyük bir xərc maddəsi təşkil etdiyi kapital tutumlu müəssisələrin qiymətləndirilməsində faydalıdır. Qeyd etmək lazımdır ki, bu əmsal eyni sənaye sahəsindəki müəssisələri müqayisə etmək üçün istifadə edilməlidir, çünki şirkətin biznes növündən və onun xüsusiyyətlərindən asılı olaraq multiplikatorların göstəriciləri əhəmiyyətli dərəcədə fərqlənə bilər [5].




**Şəkil 2. RQ səviyyəsinin qiymətləndirilməsi üçün göstəricilər**
**Mənbə: Şəkil müəllif tərəfindən [7, s.135] mənbəsinə əsasən tərtib edilmişdir.**

Bazar payı müəyyən bir müəssisənin bazardakı mövqeyinin digər firmalar – onun rəqibləri ilə müqayisədə xarakteristikasıdır. Bu göstərici faiz nisbətində müəyyən edilir, burada 100 faiz eyni kateqoriyalı malların bazarda ümumi satış həcmi kimi qəbul edilir [5].

Növbəti göstərici ehtiyatların dövriyyə əmsalıdır. Bu, müəssisənin işgüzar fəallığının göstəriciləri qrupuna daxildir və aktivlərin və ya öhdəliklərin istifadə intensivliyini (dövriyyə sürətini) əks etdirir. Ehtiyatların dövriyyə əmsalı illik gəlirin ehtiyatların orta dəyərinə nisbəti kimi hesablanır. Bu, müəssisədə ehtiyatların idarə edilməsinin səmərəliliyini göstərir və qida məhsulları istehsalı ilə məşğul olan müəssisənin fəaliyyəti üçün çox vacib amildir. Əmsal təhlil edilən dövrdə müəssisənin ehtiyatlarından neçə dəfə istifadə etdiyini müəyyən edir. Başqa sözlə, əmsal mal ehtiyatlarının istehsal və anbardan buraxılma sürətini göstərir. Bu da öz növbəsində satınalma (anbar) və satış şöbələrinin səmərəliliyini əks etdirir.

İşlənib hazırlanan metodik yanaşmanın ikinci mərhələsi aktual məlumatların toplanmasıdır. Göstəricilərin hesablanması üçün satışdan əldə olunan gəlir, ehtiyatların miqdarı, EV, EBITDA və satış mənfəətliliyi kimi mütləq dəyərlərin toplanması zəruridir ki, bunlar müəssisənin açıq mühasibat hesabatları əsasında hesablanır. Məlumatların toplanması RQ səviyyəsinin dinamikasını öyrənmək üçün 10-15 il diapazonunda aparılmalıdır. Növbəti mərhələdə qida məhsulları istehsalı ilə məşğul olan müəssisənin rəqabət qabiliyyəti səviyyəsinin qiymətləndirilməsi üçün inteqral qiymətləndirmə əldə etmək məqsədilə istifadə olunan göstəriciləri standart (müqayisə edilə bilən) formaya gətirmək lazımdır. Göstəricilərin standartlaşdırılması, məsələn, aşağıdakı dustur (3) ilə həyata keçirilə bilər:

$$z_i = (x_i - x_{min}) / (x_{max} - x_{min}), \qquad (3)$$

burada $z_i$ – yekun i-ci göstəricinin dəyəri (0-dan 1-ə qədər diapazonda), $x_i$ – i-ci göstəricinin dəyəri, $x_{min}$ – göstəricinin minimal dəyəri, $x_{max}$ – göstəricinin maksimal dəyəridir.

Bu çevrilmə üsulu bütün məlumatları 0-dan 1-ə qədər diapazona gətirməyə imkan verir. Hər bir göstəricinin maksimal və minimal səviyyələrini müəyyən etmək üçün məlumatlar tarixi perspektivdə, yəni müəyyən bir müddət ərzində təhlil edilməli və tarixi maksimum və minimumlar aşkarlanmalıdır. Z-şkalalar əsasında standartlaşdırmanın başqa bir üsulu da mövcuddur. Bu halda standartlaşdırma ilkin paylanmalardan və ölçü vahidlərindən asılı olmayaraq məlumat dəstinin bütün ilkin dəyərlərini orta dəyəri sıfır və standart kənarlaşması 1-ə bərabər olan paylanmaya gətirir. Nəticədə hər bir dəyərin məlumat dəstindəki yerini standart kənarlaşma vahidlərində onun orta dəyərdən kənarlaşmasını ölçən standartlaşdırılmış şkala formalaşır. Standartlaşdırılmış şkala dəyərləri aşağıdakı dustur (4) ilə müəyyən edilir [7,s.335]:

$$zi = (xi - \overline{x}) / \sigma x, \qquad (4)$$

burada xi – əlamətin ilkin dəyəri, $\overline{x}$ və σx – məlumat dəstinə əsasən qiymətləndirilən əlamətin orta dəyəri və standart kənarlaşmasıdır.

Standartlaşdırılmış Z-şkalaların çatışmazlığı onlarda mənfi dəyərlərin ola bilməsidir ki, bu da bəzi hallarda məlumat təhlilinin məntiqinə ziddir. Mənfi dəyərlər əlavə çevrilmələrlə aradan qaldırıla bilər. Bizim tədqiqatımızda standartlaşdırma mərhələsi minimal və maksimal dəyərlərdən istifadə olunan dustur əsasında həyata keçiriləcək. Növbəti mərhələdə metodik yanaşma çərçivəsində RQ səviyyəsinin inteqral qiymətləndirilməsi aparılır. Belə bir qiymətləndirmə orta dəyər əsasında əldə edilə bilər. Lakin qeyd etmək vacibdir ki, ayrı-ayrı göstəricilər yekun RQ səviyyəsi göstəricisinə müxtəlif dərəcədə təsir göstərir. Buna görə də, yekun ifadədə hər bir göstərici (dəyişən) üçün qida sənayesinin xüsusiyyətlərini nəzərə almağa imkan verən öz çəki əmsalı tətbiq edilməlidir. Beləliklə, inteqral göstəricinin hesablanması zamanı çəkili arifmetik orta dusturun (5) istifadə edilməsi məqsədəuyğundur:

$$\overline{z} = (\sum zi * wi) / (\sum wi), \quad (5)$$

burada $\overline{z}$ – çəkili arifmetik orta, zi – i-ci elementin dəyişən əlamətinin dəyəri, wi – i-ci əlamətin çəkisidir.

Burada vacib məsələ, inteqral qiymətləndirmədə iştirak edən hər bir göstərici üçün çəki sisteminin formalaşdırılmasıdır. Bizim fikrimizcə, xüsusi əhəmiyyət ehtiyatların dövriyyə əmsalına verilməlidir.

Müəssisələr üzrə apardığımız tədqiqat göstərdi ki, ehtiyatların dövriyyə əmsalının dəyəri qida məhsulları istehsalı ilə məşğul olan müəssisələrdə xeyli yüksəkdir, bu da bu fəaliyyət növündə RQ səviyyəsinin təhlili zamanı həmin göstəricinin qiymətləndirilməsinin əhəmiyyətini sübut edir. Beləliklə, tədqiqatın nəticəsində qida məhsulları istehsalı müəssisəsinin rəqabət qabiliyyəti səviyyəsinin inteqral göstəricisində iştirak edən beş göstərici üçün aşağıdakı çəki əmsalları formalaşdırılmışdır: ehtiyatların dövriyyə əmsalı üçün 0,6, qalan bütün göstəricilər üçün isə 0,25.

**Nəticə**

Apardığımız tədqiqat qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi məqsədilə metodik yanaşmanı işləyib hazırlamış və əsas göstəriciləri müəyyənləşdirmişdir. Təhlillər göstərir ki, rəqabət qabiliyyətinin dəqiq ölçülməsi müəssisələrin bazar mövqelərini gücləndirməsi və iqtisadi səmərəliliyini artırması üçün mühüm əhəmiyyət kəsb edir. EBITDA, EV/EBITDA və ehtiyatların dövriyyəsi kimi göstəricilər rəqabət qabiliyyətinin qiymətləndirilməsində əsas rol oynayır, çünki onlar maliyyə dayanıqlığını və əməliyyat səmərəliliyini əks etdirir. Təklif olunan metod müəssisələrin rəqabət mühitinin dinamikasını təhlil etməyə və müqayisəli qiymətləndirməni aparmağa imkan verir. Həmçinin, zənnimizcə, müəssisələrə ehtiyatların idarə edilməsini optimallaşdırmaq, rəqəmsal texnologiyalardan istifadə etmək və bazar payını artırmaq üçün innovasiyaları tətbiq etmək zəruridir. Bu tədbirlər dövlət dəstəyi mexanizmlərindən istifadəni və müəssisələrin rəqabət qabiliyyətini artırmağa kömək edə bilər. Digər tərəfdən, hesab edirik ki, bu üsulun digər sənaye sahələrində tətbiqi və daha geniş göstəricilər çeşidi ilə təkmilləşdirilməsi də məqsədəuyğun olardı.

## ƏDƏBİYYAT SİYAHISI

1. Hacıyev, A. A. Davamlı inkişaf konsepsiyasının formalaşmasının siyasi, iqtisadi və humanitar şərtləri / A. A. Hacıyev // İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişafı problemləri: beynəlxalq elmi konfrans, Sumqayıt, 16–17 dekabr 2021-ci il. Cild 10. – Sumqayit: Sumqayıt Dövlət Universiteti, 2021. – S. 554-560

2. Məmmədova, Ş. S. Milli sərvətlər və davamlı inkişaf strategiyasının həyata keçirilməsi istiqamətləri / Ş. S. Məmmədova // İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişafı problemləri: beynəlxalq elmi konfrans, Sumqayıt, 16–17 dekabr 2021-ci il. Cild 10. – Sumqayit: Sumqayıt Dövlət Universiteti, 2021. – S. 419-424.

3. Андреев А.В. Формирование конкурентных преимуществ предприятий пищевой промышленности: теория и практика / А.В. Андреев // Научное обозрение. – 2016. – № 4. – С. 316–327.

4. Архипов, А.В. Метрология. Стандартизация. Сертификация: Учебник

Архипов, А.Г. Зекунов, П.Г. Курилов . – М.: Юнити-Дана, 2017. – 495 с.

5. Дайджест. Обзор основных тенденций в пищевой промышленности. Кормовые добавки [Электронный ресурс] / Корпорация «Развитие». Москва: 2018 URL: - https://goo-gl.ru/5e0y (дата обращения 19.10.2020). Пищевая промышленность. Аналитическая справка.

6. Дырдонова А.Н. Управление устойчивым развитием промышленных кластеров: диссертация ... доктора экономических наук: 27.01.19. Курск, 2019. 138 с.

для студентов вузов, обучающихся по направлениям стандартизации,

7. Ковалев В. В., Ковалев Вит. В.Финансовый менеджмент. Конспект лекций с задачами и тестами: учебное пособие. — 2-е изд., перераб. и доп. — Москва : Проспект, 2018. — 560 с.

8. Особенности формирования бренда предприятий пищевой промышленности / Расколотько А.В. // Механизмы управления экономическими, экологическими и социальными процессами в условиях инновационного развития: сб. статей. по материалам IV междунар. науч.-практ. конф. М., 2018. С. 205-208.

9. Павловец В. Введение в оценку стоимости бизнеса // Прогноз финансовых рынков [Электронный ресурс]. URL: http://bre.ru/risk/874.html (дата обращения: 18.03.2021

**Мубариз Мамедгусейн оглы Багиров**
*д.э.н, профессор*
*кафедра «Финансы и аудит»*
*Азербайджанского Государственного*
*Экономического Университета*

**Абдуллазаде Али Расим оглы**
*Азербайджанский Университет Кооперации*
*Докторант*
*aliabdullayev894@gmail.com*

# АНАЛИЗ СРЕДЫ, ОПРЕДЕЛЯЮЩЕЙ УРОВЕНЬ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРЕДПРИЯТИЙ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ

## Резюме

В данной статье предложен методический подход к оценке конкурентоспособности и среды предприятий пищевой промышленности. Актуальность исследования обусловлена усилением конкуренции в пищевом секторе, изменчивостью рыночных условий и трансформацией потребительского спроса. Предлагается измерение конкурентоспособности с помощью единого числового показателя, что позволяет анализировать динамику уровня конкурентоспособности и проводить сравнительный анализ различных предприятий. Методологический подход включает несколько этапов: определение ключевых показателей, сбор данных, их стандартизацию, расчет интегрального показателя и интерпретацию результатов. Среди основных показателей выделяются EBITDA, EV, коэффициент оборачиваемости запасов, операционная рентабельность и доля рынка. EBITDA отражает финансовую устойчивость предприятия, а EV позволяет оценить стоимость бизнеса. Особое значение придается коэффициенту оборачиваемости запасов, так как в пищевой промышленности характерен короткий срок хранения. Стандартизация показателей и интегральная оценка проводятся с использованием формулы средневзвешенного арифметического. В результате исследования предложены весовые коэффициенты: 0,6 для коэффициента оборачиваемости запасов и 0,25 для остальных показателей. Предложенный метод предоставляет предприятиям практические инструменты для укрепления рыночных позиций и повышения экономической эффективности. Рекомендуется использовать цифровые технологии, оптимизировать управление запасами и внедрять инновации. В статье показано, что данный

подход поддерживает долгосрочные стратегии развития предприятий и обеспечивает их устойчивость в условиях рыночной конкуренции.

**Ключевые слова**: конкурентоспособность, пищевая промышленность, EBITDA, оборачиваемость запасов, стратегическое управление.

**Mubariz Mamedguseyn oglu Bagirov**
*doctor of economics, professor*
*Department of "Finance and Audit"*
*Azerbaijan State Economic University*

**Ali Rasim oglu Abdullazadeh**
*Azerbaijan Cooperation University*
*Doctoral student*
*aliabdullayev894@gmail.com*

## ANALYSIS OF THE ENVIRONMENT DETERMINING THE COMPETITIVENESS LEVEL OF FOOD INDUSTRY ENTERPRISES

**Abstract**

This article proposes a methodological approach to assessing the competitiveness and environment of food industry enterprises. The study's relevance is driven by increasing competition in the food sector, market volatility, and evolving consumer demand. Measuring competitiveness through a single numerical indicator is suggested, enabling the analysis of competitiveness dynamics and comparative evaluation of different enterprises. The methodological approach encompasses several stages: identifying key indicators, data collection, standardization, calculating an integral indicator, and interpreting results. Key indicators include EBITDA, EV, inventory turnover ratio, operating profitability, and market share. EBITDA reflects the enterprise's financial stability, while EV assesses business value. Special emphasis is placed on the inventory turnover ratio due to the short shelf life typical in the food industry. Standardization of indicators and integral assessment are performed using a weighted arithmetic mean formula. The study proposes weight coefficients: 0.6 for the inventory turnover ratio and 0.25 for other indicators. The proposed method offers enterprises practical tools to strengthen market positions and enhance economic efficiency. It is recommended to leverage digital technologies, optimize inventory management, and implement innovations. The article demonstrates that this approach supports enterprises' long-term development strategies and ensures their resilience in competitive market conditions.

**Keywords:** competitiveness, food industry, EBITDA, inventory turnover, strategic management.